# Azərbaycanın uğurlarının təməlində Prezidentlə xalqın birliyi dayanır




**"Sosial siyasət, dərin iqtisadi islahatlar bizə bu vəziyyətdən də uğurla çıxmağa imkan verəcək. 2016-cı il dərin iqtisadi islahatlar ili olmalıdır və olacaq. Əlavə sərəncam və fərmanlar da imzalanacaq ki, iqtisadiyyatımız güclənsin". Bu fikirləri "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının ikinci ilinin yekunlarına həsr olunmuş konfransda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev söyləyib.**



Qeyd edək ki, yanvarın 26-da keçirilən konfransda səsləndirilən fikirlər ölkəmizin iqtisadi inkişafında yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilir. Dövlətimizin başçısının irəli sürdüyü ideyalar yeni islahatlara start verildiyini nümayiş etdirir.

Konfransda qeyd edilən bir sıra faktlar göstərir ki, Azərbaycan hazırda bütün dünyada baş verən iqtisadi böhrandan ən az zərərlə çıxmaq imkanında olan azsaylı dövlətlərdəndir. Əlbəttə, bütün bunların əsasında son illərdə ölkədə aparılan uğurlu və məqsədyönlü siyasətin dayandığını ayrıca qeyd etmək zəruridir.

Bu gün bütün dünyada neftin qiymətinin ucuzlaşması bir sıra dövlətlərin iqtisadi siyasətində müəyyən çətinliklər yaradır. Neft ölkəsi kimi Azərbaycan da bu proseslərdən kənarda deyil. Lakin Azərbaycanın əldə etdiyi iqtisadi uğurlar, bu uğurları stimullaşdıran imkanlar, qeyri-neft sektorunun inkişafı istiqamətində son illərdə aparılan məqsədyönlü siyasət ölkəmizin bu böhrandan minimum zərərlə çıxmasına şərait yaradır. Göstərilən çətinliklərə baxmayaraq, Prezident İlham Əliyev sosial siyasətin bundan sonra da dövlət siyasətinin əsasını təşkil edəcəyini dəfələrlə vurğulamışdır.

Dövlətimizin başçısı hər zaman çıxışlarında Azərbaycanın dövlət siyasətinin sosialyönümlü olduğunu xüsusi qeyd etmişdir. Bildirmişdir ki, yürüdülən siyasətin mərkəzində Azərbaycan vətəndaşı, onun rifahının yaxşılaşdırılması dayanır. Son 12 ildə sosial sahədə həyata keçirilən tədbirlər və qəbul edilən qərarlar bu amilin Azərbaycan Prezidentinin siyasətində hər zaman prioritet olduğunu nümayiş etdirir. Belə ki, son 12 ildə Azərbaycanda əməkhaqları 5 dəfə, pensiyalar isə 7 dəfə artırılmışdır. Qaçqınlar və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması daim diqqət mərkəzində olmuşdur. Bu məqsədlə ümumilikdə 89 qəsəbə tikilmişdir ki, bunlarda da 225 min məcburi köçkün məskunlaşmışdır. Göstərilən dövrdə ölkə üzrə ümumilikdə 1,5 milyon iş yeri açılmışdır. Bu gün neftin ucuzlaşması müqabilində yaranmış vəziyyətə rəğmən Azərbaycan Prezidenti əhalinin işlə təmin edilməsinin vacib olduğunu bir daha vurğulamışdır. Yuxarıda qeyd edilən konfransdakı nitqində bu məsələni bir daha diqqətə çatdıran Prezident özəl sektorun da insanlara soasial məsuliyyət prizmasından yanaşmalı olduğunu vurğulamışdır: "Sosial məsuliyyət nəzərə alınmalı, şirkətlərdə ixtisar hallarının olmamasına çalışılmalıdır. İş yerlərinin açılmasında dövlət şirkətləri nümunə göstərməlidirlər. İşlərini itirən insanlar dövlət şirkətlərinə müraciət etsinlər, əminəm ki, iş yerləri olacaq. Sahibkarlar da bu prosesdə iştirak etməlidirlər. Çünki iş adamlarına dövlət hərtərəfli dəstək verir və iş adamları da sosial məsuliyyətlərini dərk etməlidirlər".

Qeyd edək ki, Prezident tərəfindən 2016-cı ilin islahatlar ili olacağı vurğulanarkən bu istiqamətdə mühüm sosial layihələrin də həyata keçirilməsi nəzərdə tutulur. Sosial sahədə reallaşdırılan dövlət siyasəti bundan sonra da vətəndaşların rifah halının yaxşılaşdırılmasına xidmət edir.

Əmək ehtiyatlarından səmərəli istifadəyə şərait yaradılmaqla əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsinin Azərbaycan Prezidenti cənab İlham Əliyevin sosial-iqtisadi inkişaf strategiyasının başlıca istiqamətlərindən biri olduğunu vurğulayan əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov bildirib ki, ötən müddətdə yoxsulluğun azaldılması və davamlı inkişaf, regionların sosial-iqtisadi tərəqqisi, habelə Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramları, 2004-cü ildən bəri 1,5 milyon iş yerinin, eləcə də ötən il 100 mindən çox iş yerinin yaradılması ölkədə əmək qabiliyyətli əhali arasında məşğulluq səviyyəsinin 95 faizədək yüksəlməsinə imkan verib: "Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən ölkəmizdə mövcud demoqrafik meyillər və inkişaf perspektivləri, iqtisadi prioritetlər əsasında uzunmüddətli dövlət məşğulluq siyasətinin formalaşdırılması üçün Azərbaycan Respublikasının Məşğulluq Konsepsiyası layihəsinin hazırlanması barədə müvafiq tapşırıq verilib. Tapşırığın icrası olaraq, Konsepsiya layihəsinin hazırlanması üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müvafiq əmri ilə aidiyyəti dövlət orqanlarının, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının, Azərbaycan Respublikasının Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının və qeyri-hökumət təşkilatlarının nümayəndələrindən ibarət İşçi qrupu yaradılıb".

Bildirilib ki, bu müsbət demoqrafik tendensiya gələcəkdə yeni iş yerlərinin artırılmasını əsas vəzifələrdən biri kimi müəyyən edir. Ona görə də daim artan demoqrafik yükün əmək bazarına və məşğulluq siyasətinə təsirinin qiymətləndirilməsi yeni Konsepsiya layihəsinin hazırlanması zamanı diqqətdə saxlanılacaq.

Bütün bu amillər Azərbaycan iqtisadiyyatının bundan sonrakı inkişafının da sağlam təməllərini yaratmışdır. 2015-ci ildə regionda və dünyada baş verən iqtisadi böhran şəraitində ölkəmiz nəzərdə tutulan bütün layihələrin icrasını uğurla yerinə yetirmişdir.

Təbii ki, bu uğurların arxasında Prezidentlə xalq arasında bərqərar olan birlik və qarşılıqlı etimad dayanır. Yuxarıda qeyd edilən konfransda Prezident İlham Əliyev məhz bu nüansı nəzərdə tutaraq bildirib: "İqtisadi inkişaf demokratik prosesdən kənar təmin oluna bilməz. Ona görə də Azərbaycanda iqtisadi və demokratik islahatlar paralel aparılır. Parlament seçkiləri də bunu sübut etdi, seçkilər şəffaf keçdi, Azərbaycan xalqının arzuları tam təmin edildi. Seçkinin nəticələri apardığımız siyasətə xalqımızın böyük dəstəyini ortaya qoydu. Ona görə də xalqımıza minnətdaram. Xalqımızı əmin etmək istəyirəm ki, dünyadakı böhrana baxmayaraq, Azərbaycan uğurla inkişaf edəcək".

Azərbaycan Prezidentinin səsləndirdiyi yeni çağırışlar ekspertlər tərəfindən ölkəmizin bundan sonrakı inkişafının təməl prinsipləri və inkişaf proqramı kimi qiymətləndirilir. Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, deputat Vahid Əhmədov Prezidentin fikirlərini şərh edərkən bildirib ki, 2016-cı il Azərbaycanda neftdən asılı olmayan bir büdcə formalaşdırmaq ili kimi tarixə düşəcək: "İslahatlar artıq başlayıb, amma Prezident tərəfindən dərin iqtisadi islahatlara da göstəriş verildi. Bu, çox ciddi məsələdir, ciddi addımdır. Yalnız bundan sonra dərin iqtisadi islahatlara gedə biləcəyik. Buna paralel olaraq struktur və iqtisadi islahatlar aparılmalıdır".

V.Əhmədovun fikrincə, son vaxtlar bir sıra Sərəncam, Fərman və qanunlara edilən dəyişikliklər artıq yeni islahatlara doğru atılan addımdır. Deputatın sözlərinə görə, idxal, ixrac əməliyyatları, liberallaşma, inhisarçılığı aradan qaldırmaq, idarəetmə və struktur islahatları aparmaqla ciddi nailiyyətlər əldə ediləcəkdir. Bir sıra nazirlikləri, komitələri və s. ləğv etmək, yaxud da birləşdirilməsini təmin etməklə yanaşı, bank sistemində çox ciddi islahatlar aparılmalı, bankların böyük kredit portfelinin təmin edilməsinə daha yaxşı şərait yaradılmalıdır. Bütün bunlar ölkəmizin bundan sonrakı inkişafını da təmin etməyə imkan verəcəkdir.

Vahid Əhmədov qeyd edib ki, hazırda regionların inkişafı üçün münbit şərait mövcuddur: "Azərbaycanda qeyri-neft sektorunun inkişafı ilə əlaqədar olaraq, yerli icra hakimiyyəti orqanlarının məsuliyyətini artırmaq lazımdır. Rayonlarda bu sektorun inkişafı üçün münbit şərait var". Onun sözlərinə görə, Azərbaycan Prezidentinin iradəsi bundan sonra da ölkəmizin iqtisadi inkişafının sürətlənməsini təmin edəcəkdir.

**Taleh Turqut,**
***"İki sahil"***